# Dünya erməni yalanlarına daha inanmır

## Paşinyanın Dağlıq Qarabağda "soyqırımı" uydurması gülüşə səbəb olur

**Hələ qədimlərdə, dövlətlər yaranmazdan əvvəl də qəbilələr arasında müharibələr olub. Sonralar cəmiyyətlər formalaşıb dövlətlər yarandıqca bu müharibələr daha amansız xarakter alıb. İndiyə kimi çox böyük itkilərə səbəb olan iki dünya müharibəsi baş verib. Sözsüz ki, bütün müharibələr böyük insan tələfatı ilə nəticələnib və ciddi dağıntılar yaradıb.**

Zaman ötdükcə müharibənin aparılmasında da müəyyən qaydalar, əxlaq normaları formalaşıb. Xüsusilə XIX əsrdən başlayaraq dövlətlər döyüşlər vaxtı dinc əhaliyə zərər yetirməmək, əsirlərlə insani şəkildə davranmaq barədə öz üzərinə müəyyən öhdəliklər götürüb. Beləliklə, dünyada müharibə dövründə müəyyən qaydalarla yanaşı, yazılmış və yazılmamış əxlaq normaları da formalaşıb.

Biz ötən əsrin 90-cı illərindən bu günə kimi ermənilərin heç bir müharibə qaydalarına sığmayan çoxsaylı vəhşiliklərinin şahidi olmuşuq. Qonşu olduqları xalqın ata-baba torpaqlarını illərlə işğal altında saxlayan bu nankor vəhşilər vaxtilə "can" sözü ilə müraciət etdiyi insanın başını "uf" demədən kəsmək kimi ağlasığmaz cinayət və vandalizm törətməyə də qadirdirlər. Onlarla bir qonşu kimi humanist rəftar edənlərin əlində-ovcunda olanını alıb, özünü də təhqir edərək evindən-eşiyindən didərgin salıblar.

Bu alçaqlar süfrəsində çörək kəsib "bacıcan" dedikləri qadının namusuna da göz dikiblər, "qardaş" deyə çağırdıqları qonşularını heç bir səbəb olmadan qətlə yetiriblər.

Onların ən böyük naqisliklərindən biri də odur ki, belə cinayətləri törədərkən bizi suçlayıb dünyaya yalan məlumat yayırlar. Xocalıda vəhşicəsinə qətlə yetirdikləri uşaqların, qadınların, qocaların foto və videolarını dünyanın kütləvi informasiya vasitələrində "dinc ermənilərə qarşı törədilən soyqırımı" kimi təqdim etməkdən utanmırlar.

Digər tərəfdən yeri gələndə törətdikləri vəhşilikləri gizlətmirlər də. Necə ki, Xocalı soyqırımını törədən, sonradan Ermənistanın prezidenti olan Serj Sarkisyan etiraf edir ki, Azərbaycan xalqında xof və vahimə yaratmaq üçün Xocalı qətliamını qəsdən həyata keçiriblər.

Ermənilər özlərinə xas olan çirkin əməllərindən indi də əl çəkmirlər. Elə döyüşlərin ilk günü bütün dünyaya səs saldılar ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda "dinc əhalini qırır, bunun qarşısını almaq üçün bizə kömək edin". Lakin bu barədə ortaya bir dəlil, sübut və ya fakt qoya bilmədilər. Azərbaycan Ordusunun məhv etdikləri əlisilahlı, işğalçı erməni əsgərləridir. Bunu isə bizə irad tuta bilməzlər. Hər bir dövlətin ordusu torpaqlarına soxulan işğalçı əsgəri məhv etmək hüququna malikdir.

Məğlub olduğunu aşkar bilən, erməni əsgərlərini yad ölkədə qırğına verdiyi üçün xalqı tərəfindən cəzalandırılacağını anlayan Paşinyan növbəti yalana əl atıb. Dünya ictimaiyyətinə müraciət edərək deyir ki, Azərbaycan Dağlıq Qarabağda dinc erməni əhalisinə qarşı "soyqırımı" törədir. Düzdür, dediyinə heç özü də inanmır. Sadəcə dünyada mövcud olan xristian təəssübkeşliyindən istifadə edərək bu yolla Azərbaycana təzyiq göstərib döyüşləri saxlamaq istəyir.

Lakin indi heç nəyi gizlətmək mümkün deyil. Cəbhədə və arxada olan hər hadisə görüntülü şəkildə dünyaya yayılır. Artıq ermənilərin Azərbaycana, xüsusilə dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri Qərb siyasətçiləri də görür. Onlar Tərtərdən, Gəncədən, Ağdamdan, Bərdədən, Ağcabədidən, Goranboydan və Naftalandan görüntülər vasitəsilə əhaliyə qarşı edilən vəhşiliyin şahidi olurlar. Həmçinin cəbhədən 150 kilometrlik məsafədə yerləşən Qəbələ, Xızı, Kürdəmir rayonlarının dinc əhalisinə və infrastruktura qarşı dağıdıcı gücə malik "Skad" raketlərindən istifadə edildiyini görürlər. Halbuki beynəlxalq qanunlara görə, bu raketlərdən döyüş bölgələrində belə, istifadə qadağandır. Erməni faşistləri isə bundan dinc əhaliyə qarşı istifadə edirlər.

Dünya kor deyil. İndi hamı görür ki, əsir alınan erməni əsgərlərinə qarşı Azərbaycanda hər hansı bir qeyri-insani rəftar edilmir, bu barədə Beynəlxalq Qızıl Xaç Komitəsinin heç bir bəyanatı səslənmir. Əksinə, əsirlər özləri onlarla Azərbaycan tərəfinin bütün hüquq normalarına, Cenevrə Konvensiyasına uyğun davrandığını deyirlər. Biz hələ ermənilərin qoyub qaçdığı yaşlı qadına Azərbaycan əsgərinin göstərdiyi insanpərvərliyi demirik.

Ən əsası isə odur ki, Azərbaycan əsgəri dinc əhalini qəsdən hədəfə almır. Hətta düşmən bizim döyüş bölgəsindən uzaq şəhərlərimizə ballistik raket atsa belə, onun cavabı savaş meydanında verilir. Prezident İlham Əliyevin dediyi kimi, biz qısasımızı döyüş meydanında müqavimət göstərən əlisilahlı düşmənlərdən alırıq.

Başıbəlalı Ermənistanın baş naziri elə fikirləşirdi ki, "Dağlıq Qarabağda erməni xalqına qarşı soyqırımı törədilir" bəyanatından sonra dünya Azərbaycanın üzərinə gələcək. Belə olmadı. Onun dediyinin ağ yalan olduğunu hətta ermənipərəst siyasətçilər və jurnalistlər də etiraf etdilər. "Erməni bülbülü" V.Solovyov Paşinyanın bu yalanını ifşa edərək bildirdi ki, Dağlıq Qarabağda heç bir erməni "soyqırımı" törədilmir. Bu o Solovyovdur ki, döyüşlər başlayanda Azərbaycan əsgərinin qisas alacağını, dinc ermənilərin "soyqırıma" məruz qalacağını söyləyirdi. Azərbaycan əsgərinin humanizmi, mülki əhali arasında itkilərin olmaması üçün arsenalındakı dağıdıcı silahlardan istifadə etməməsi hamını həqiqəti etiraf etməyə məcbur edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.-31 oktyabr.- S.5.